***Prezident İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə – İqtisadiyyat naziri təyin etməsi ilə əlaqədar qəbul edərkən onun işindən razı qaldığını demişdir. Dövlət başçımız, həmçinin Vergilər Nazirliyinin işini yüksək qiymətləndirmiş, cari ildə plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplanıldığını, bunun da, əlbəttə ki, şəffaflığın təzahürü olduğunu vurğulamışdır. Ölkəmizin minimum pensiyanın alıcılıq qabiliyyətinə görə MDB məkanında birinci, orta pensiyanın səviyyəsinə görə üçüncü yerdə olduğunu deyən Prezident bunun, çox böyük sosial təşəbbüs olduğunu qeyd etmişdir. Dövlət başçısı bəzilərinin biznesinə dəyməmələri üçün Vergilər nazirinə təzyiq göstərdiklərini, M.Cabbarovun isə onların qarşısında mətanətlə çıxış etdiyindən xəbərdar olduğunu bildirmişdir: “Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini verməK, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək”.***



*Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır. Bu il Vergilər Nazirliyi plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplayıb və əlbəttə ki, bu, şəffaflığın təzahürüdür. Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı təxminən iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Dövlət başçısının məqsədi vətəndaşların rahat və firavan həyatını təmin etməkdir

Məhz Mikayıl Cabbarovun bacarıqlı kadr olduğunu və iş qabiliyyətini nəzərə alan dövlət başçısı onu çox məsuliyyətli bir vəzifəyə təyin etmişdir. Prezident M.Cabbarovu qəbul edərkən demişdir: “İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər”.

Həqiqətən də, bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil. Prinsipial müstəqil Azərbaycan xalqının maraqlarını təmin edən siyasət aparır. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır. Aparılan məqsədyönlü islahatlar nəticəsində bu ilin doqquz ayında 100 mindən çox əmək müqaviləsi qeydiyyata alınıb.

Yeni islahat paketinin əsas məğzini minimum əməkhaqqının artırılması təşkil edir. Bu il fevralın 8-də cənab Prezident minimum əməkhaqqını 130 manatdan 180 manata qədər yüksəltmişdisə, iyunun 18-də imzaladığı sərəncamla bu məbləğ ikinci dəfə artırılmaqla, 180 manatdan 250 manata çatdırıldı. Beləliklə, 1 il ərzində minimum əməkhaqqı 2 dəfəyə qədər artırıldı. Əgər fevralın 8-də minimum əməkhaqqının artırılması 600 min nəfəri əhatə edirdisə, sonrakı sərəncamla bu artım 950 min nəfərə şamil olunur. Bu insanların 300 min nəfəri özəl sektorda, 600 minə yaxını isə dövlət sektorunda çalışan vətəndaşlar, o cümlədən Vahid Tarif Cədvəli ilə maaş alan səhiyyə və təhsil işçiləridir. Minimum əməkhaqqının artırılmasına dövlət büdcəsindən əlavə olaraq ildə 780 milyon manat vəsait xərclənməsi nəzərdə tutulub. Hərbi və hüquq-mühafizə orqanlarında çalışanların aylıq vəzifə maaşları da 40 faiz artıb. Həm peşə, həm də ümumtəhsil məktəblərində diaqnostikadan keçən müəllimlərin maaşlarında isə 20 faiz artım var. Təkcə bu il ərzində 4 milyon insanın sosial rifah halını yaxşılaşdırmaq üçün 4 milyard manat əlavə vəsait sərf olunacaq və 2019-cu il Azərbaycanda sosial rifah ili kimi tarixə düşəcək. Prezidentin imzaladığı yeni sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin məntiqi davamı, silsilə tədbirlərin növbəti mərhələsidir. Bu, vətəndaşlarımızın sosial cəhətdən müdafiəsini gücləndirmək, onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir.

Cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış olur. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələyərək, ondan 70 manat çox olacaq. Bu, Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla, ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir.

Ümumilikdə, ikinci sosial paket 1 milyon 350 min nəfəri əhatə edir ki, onlardan da 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlərdir. Minimum əməkhaqqının artırılması, eyni zamanda, qeyri-formal məşğulluğa qarşı mübarizənin gücləndirilməsi sahəsində aparılan islahatlarda da müsbət nəticələr verir. Cari ilin ilk rübündə reallaşan ilk sosial paket çərçivəsində minimum əməkhaqqının artımı timsalında bunu aydın görmək olar. Belə ki, 2019-cu ilin əvvəlindən ötən 5 ay ərzində ölkə üzrə əməkhaqqı fondu 18, o cümlədən dövlət sektorunda 15, qeyri-dövlət sektorunda 21 faiz yüksəlib.

Qeyd edək ki, 2018-ci ildə respublikada 7 min nəfərdən çox vətəndaş özünüməşğulluq proqramına cəlb edilib. Bu il isə daha çox vətəndaşın layihədən yararlanması nəzərdə tutulub. Proqrama cəlb edilən işsiz və işaxtaranlar sırasında əlilliyi olanlara, aztəminatlı, çoxuşaqlı, şəhid, məcburi köçkün, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərinə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunanlara və digər həssas qruplara üstünlük verilir. Prezident söhbət zamanı həmin məsələyə də toxunmuş, bu sahənin çox ciddi diqqət tələb etdiyini, çox ciddi addımlar atılmalı olduğunu bildirmişdir: “Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir. Hüquq-mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıblar və siz nazir kimi çalışmalısınız ki, belə hallara yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcəkdir. Ona görə biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz”.

Dövlət başçısı İqtisadiyyat Nazirliyinin bu məsələnin öhdəsindən gələcəyinə əminliyini bildirmişdir. Yəni ki, heç bir qanunazidd əməllərə yol verilməməli, kimsəyə güzəşt olunmamalı, bütün sahibkarlar vergi ödənişlərini qanunun tələb etdiyi çərçivədə ödəməlidirlər. Bu işə ciddi nəzarət olunmalıdır ki, vergidən gələn gəlirlə əhalinin sosial rifahının yüksəlməsinə xidmət edən layihələr icra edilsin. Çünki dövlət başçısının ali məqsədi vətəndaşını rahat, dinc şəraitdə və təmin olunmuş görməkdir.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***